# Qarabağda bərpa-quruculuq işlərinin vüsəti dərin məmnunluq doğurur



***Qırx dörd günlük şanlı Vətən müharibəsi nəticəsində erməni işğalından azad edilmiş ərazilərdə son aylar möhtərəm Prezidentimiz İlham Əliyevin təşəbbüsü və rəhbərliyi ilə geniş bərpa-quruculuq işləri görülür. Bu, olduqca vacib və təxirəsalınmaz işləri ölkə ictimaiyyəti böyük maraqla izləyir. Həmin ərazilərdə bir-birindən gözəl yollar çəkilir, yeni istehsal müəssisələri qurulur, bütün zəruri infrastruktur yaradılır.***

Qarabağda görülən işlərin sürəti və vüsəti hər bir Azərbaycan vətəndaşı kimi, məni də çox sevindirir. Azərbaycan iqtidarının xalqla əl-ələ verib azad edilmiş ərazilərdə həyata keçirdiyi yenidənqurma işlərinin məqsədi, ilk növbədə məcburi köçkün ailələrinin doğma ata-baba yurdlarına qayıtmalarını təmin etməkdir.

Məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 9-da Xocavənd rayon ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Dövlətimizin başçısı tədbirdəki parlaq, dərin məzmunlu çıxışında demişdir: “Biz həm tarixi ədaləti bərpa edirik, həm bizim dini-mənəvi dəyərlərimizə sədaqət göstəririk. Eyni zamanda, artıq yarımstansiya, yol əsas infrastruktur layihələrindən biridir və digər layihələr də icra ediləcək. Hadrutun tarixi hissəsi yenidən qurulacaq. Artıq binaların təmiri ilə bağlı ilkin görüntülər var və eyni zamanda, qəsəbədə müşahidə olunan bu səliqəsizlik adamı incidir. Qəsəbəni bu gündə təsəvvür etmək mümkün deyil. Ona görə biz Hadrutu beynəlxalq mədəniyyət və turizm mərkəzinə çevirmək əzmindəyik”.

Bəllidir ki, Azərbaycan dövləti bu gün təkcə Hadrut qəsəbəsi və Xocavənd rayonunun inkişafı ilə bağlı tədbirlər həyata keçirmir, hazırda faktiki olaraq bütövlükdə Qarabağda olduqca genişmiqyaslı quruculuq işləri görülür. Bunları müşahidə etdikcə, əlbəttə, sevincimizdən hər birimizin qəlbi dağa dönür. Bəli, Prezident İlham Əliyevin lideri olduğu müstəqil Azərbaycanın vətəndaşı olmaq böyük fəxarətdir.

Yeri gəlmişkən, cənab İlham Əliyev 2003-cü ildə Azərbaycan Respublikasının Prezidenti seçildiyi ilk gündən torpaqlarımızın işğaldan azad edilməsini özünün bir nömrəli vəzifəsi adlandırıb. Cənab Prezident bu məqsədə çatmaq üçün dəqiq hədəflər müəyyənləşdirib. Bütün istiqamətlərdə, bütün sahələrdə çox uğurlu, uzaqgörən, müdrik siyasət ortaya qoyub.

Prezident İlham Əliyevin liderliyi ilə ölkəmiz sürətlə inkişaf etməyə başlayıb, ölkədə möhkəm daxili sabitlik yaradılıb, iqtisadiyyat şaxələndirilib, ordumuz günbəgün inkişaf edib. Azərbaycan Ordusunun döyüş qabiliyyəti, maddi-texniki bazası gücləndirilib. Ən əsası, İlham Əliyevin prezidentliyi dövründə ölkədə mübariz, döyüşkən ruhlu, sədaqətli gənc nəsil yetişdirilib.

Nəticə göz qabağındadır. İkinci Qarabağ müharibəsində xalqımız əzəli torpaqlarını qətiyyətlə işğaldan azad etməklə, dünyada son onillər ərzində çox az xalqlara nəsib olan bir xoşbəxtliyə nail olub. Azərbaycan xalqı həqiqətən bu gün dünyanın ən xoşbəxt xalqlarından biridir. Xalqımızın Vətən müharibəsindəki tarixi zəfəri minillik tariximizin ən şərəfli səhifələrindən biridir.

Yeri gəlmişkən, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu il oktyabrın 15-də Müstəqil Dövlətlər Birliyinin Dövlət Başçıları Şurasının videokonfrans formatında keçirilən iclasındakı çıxışında demişdir: “Hazırda Azərbaycanın qarşısında duran əsas problemlər azad edilmiş ərazilərin minalardan təmizlənməsi və dağıdılmış infrastrukturun, binaların, evlərin, Azərbaycan xalqının tarixi abidələrinin bərpasıdır. Müharibədən sonra 150-dən çox vətəndaş minaya düşərək həlak olub, yaxud ciddi xəsarətlər alıb. Ermənistan minalanmış sahələrin tam xəritələrini bizə verməkdən imtina edir”.

Ermənistan regionda yaranmış yeni reallıqlarla barışmağa borcludur. Prezident İlham Əliyevin vurğuladığı kimi, artıq müharibə və münaqişə tarixdə qalıbdır. Azərbaycan özünü ərazi bütövlüyünün qarşılıqlı tanınması şərti ilə sərhədlərin delimitasiyasına dair Ermənistanla danışıqlara, həmçinin sülh sazişinə dair danışıqlara başlamağa hazırdır. Ümid etmək istərdik ki, Ermənistan rəhbərliyi bu tarixi şansı əldən verməyəcək.

***Əfrahim TƏHMƏZOV,***
***politoloq, ehtiyatda olan ədliyyə polkovniki***

Xalq qəzeti.- 2021.- 19 oktyabr.- S.11.